# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI

## HAQSIZ RƏQABƏTİN VƏZİYYƏTİNƏ DAİR

## H E S A B A T

***İcraçılar:***

*Haqsız rəqabətə qarşı mübarizə və beynəlxalq əlaqələr*
*idarəsinin rəisi* *Rövşən Cəfərli*

*Haqsız rəqabətə qarşı mübarizə*
*şöbəsinin müdiri* *Afiqə Bayramova*

**BAKI - 2026**

## Haqsız rəqabətin vəziyyətinə dair

## HESABAT

### I. GİRİŞ

Haqsız rəqabət iqtisadi subyektlərin bazarda üstün mövqe əldə etmək və ya bazar payını artırmaq məqsədilə etik prinsipləri, peşə davranışı normalarını və mövcud hüquqi çərçivəni pozaraq digər subyektlərin qanuni maraqlarına zərər vurması kimi səciyyələndirilir. Bu cür davranışlar bazar mexanizmlərinin sağlam fəaliyyətinə mane olmaqla yanaşı, uzunmüddətli perspektivdə xidmətlərin keyfiyyətinin aşağı düşməsinə, etimad mühitinin zəifləməsinə və peşə institutlarının nüfuzunun sarsılmasına səbəb olur.

Audit sahəsində haqsız rəqabət anlayışı daha spesifik və həssas formalar alır. Belə ki, auditor fəaliyyəti birbaşa ictimai etimad, peşəkar müstəqillik, obyektivlik və şəffaflıq prinsipləri üzərində qurulduğundan, bu sahədə yol verilən hər hansı qeyri-etik və ya qeyri-qanuni rəqabət forması yalnız ayrı-ayrı auditorların deyil, bütövlükdə müstəqil audit institutunun nüfuzuna ciddi zərbə vurur. Xüsusilə dempinq qiymətləri tətbiq etməklə bazara daxil olma, real əmək və riskləri nəzərə almayan xidmət təklifləri, sifarişçilərlə qeyri-rəsmi razılaşmalar və peşə həmrəyliyinə zidd davranışlar audit xidmətlərinin keyfiyyətinə mənfi təsir göstərən əsas amillər sırasındadır.

Məhz bu riskləri və mövcud vəziyyətin ciddiliyini nəzərə alaraq, auditor fəaliyyətində haqsız rəqabət və dempinq hallarının aradan qaldırılması, göstərilən auditor xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, müstəqil auditə ictimai etimadın gücləndirilməsi və auditor peşəsinin cəmiyyətdəki nüfuzunun artırılması məqsədilə Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən 2022-ci il “Haqsız rəqabətlə mübarizə ili” elan edilmişdir. Bu təşəbbüs peşəkar ictimaiyyətin tələbi və dəstəyi ilə həyata keçirilmiş, il ərzində haqsız rəqabətin qarşısının alınmasına yönəlmiş bir sıra konkret və məqsədyönlü tədbirlər görülmüşdür.

Həmin tədbirlər çərçivəsində Türkiyə Respublikasının audit sahəsində haqsız rəqabətlə mübarizə üzrə qabaqcıl institusional və normativ təcrübəsi öyrənilmiş, bu təcrübənin yerli şəraitə uyğunlaşdırılması istiqamətində müvafiq addımlar atılmışdır. Nəticə etibarilə Auditorlar Palatasının üzvləri üçün haqsız rəqabət, dempinq və peşə etikası ilə bağlı 11 metodik vəsait təsdiq edilmiş, habelə haqsız rəqabətlə mübarizədə yol xəritəsi rolunu oynayan “Qütb Ulduzumuz” adlı metodoloji kitabça nəşr olunmuşdur.

Bununla belə, görülmüş işlərə baxmayaraq, auditor xidmətləri bazarında mövcud olan problemlər tam aradan qaldırılmamışdır. Auditorlar arasında peşə həmrəyliyinin hələ də istənilən səviyyədə formalaşmaması, dempinq hallarının davam etməsi, bəzi hallarda auditor xidmətlərinin keyfiyyətinin müasir tələblərə və beynəlxalq standartlara tam cavab verməməsi,

eləcə də normativ-hüquqi bazada mövcud olan boşluqlar yaxın perspektivdə daha sistemli və ardıcıl tədbirlərin görülməsinin vacibliyini ön plana çıxarır.

Hazırkı hesabatın əsas məqsədi Azərbaycan Respublikasının Auditorlar Palatasında qeydə alınmış haqsız rəqabət hallarını kompleks şəkildə təhlil etmək, bu halların yaranma səbəblərini, xarakterini və yayılma meyllərini müəyyənləşdirmək, eyni zamanda normativ-hüquqi və institusional səviyyədə onların qarşısının alınması üçün effektiv və tətbiq oluna bilən tədbirlər irəli sürməkdir. Hesabat Auditorlar Palatasına aparılmış araşdırmalar, intizam icraatlarının nəticələri və mövcud statistik məlumatlar əsasında hazırlanmış və gələcək siyasət və tənzimləmə qərarları üçün analitik baza rolunu oynayır.

Hesabat aşağıdakı əsas aspektləri əhatə edir:

- Auditorların bağladıqları müqavilələrin monitorinqi və təhlili;
- Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədlərinə əməl olunmasının qiymətləndirilməsi;
- Haqsız rəqabət və dempinq risklərinin araşdırılması;
- Təhlil nəticələrinə əsasən təklif və tövsiyələrin hazırlanması.

## II. AUDİTDƏ HAQSIZ RƏQABƏTİN FORMALARI

Audit subyektləri arasında müşahidə olunan əsas haqsız rəqabət formaları aşağıdakılardır:

***Qiymət dempinqi:*** Auditor xidmətlərinin bazar dəyərindən kəskin aşağı qiymətə təklif edilməsi.

***Yalançı reklam:*** Öz xidmətlərinin real olmayan formada təqdim edilməsi və digər şirkətlərin nüfuzuna xələl gətirilməsi.

***Məlumatların qeyri-qanuni istifadəsi:*** Rəqib şirkətlərin müştəri bazası və ya kommersiya sirrlərinin qeyri-qanuni yollarla əldə olunaraq istifadə edilməsi.

***Peşə etikası pozuntuları:*** İcazəsiz fəaliyyət, sertifikatsız əməkdaşların işə cəlb olunması, müstəqillik prinsipinə zidd davranışlar.

Bu hallar auditor xidməti bazarında sağlam rəqabət mühitini pozmaqla yanaşı, peşənin institusional inkişafına da mənfi təsir göstərir.

## III. HESABATIN MƏQSƏDİ

Hazırkı hesabatın əsas məqsədləri aşağıdakılardır:

1. 2025-ci il ərzində bağlanmış auditor xidməti müqavilələrinin haqsız rəqabət baxımından təhlili;

2. Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədlərinə əməl olunmamasına səbəb ola biləcək potensial risklərin müəyyənləşdirilməsi;

3. Auditor təşkilatları və sərbəst auditorların fəaliyyətində şəffaflığın artırılmasına yönəlmiş təklif və tövsiyələrin hazırlanması;

4. Auditor xidməti bazarında dempinq və qeyri-etik rəqabət hallarının qarşısının alınması üzrə mövcud vəziyyətin qiymətləndirilməsi;

5. Gələcək dövrlər üçün haqsız rəqabətin monitorinq mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə analitik məlumat bazasının formalaşdırılması.

## IV. METODOLOGİYA

### 3.1. Məlumatların toplanması

2025-ci il ərzində auditor fəaliyyəti sahəsində haqsız rəqabət və dempinq halları ilə bağlı Auditorlar Palatasına hər hansı rəsmi müraciət, şikayət və ya məlumat daxil olmamışdır. Bu səbəbdən hesabat çərçivəsində aparılan təhlillər və qiymətləndirmələr auditor təşkilatları və sərbəst auditorlar tərəfindən “Auditorun şəxsi kabineti” sisteminə daxil edilmiş auditor xidməti müqavilələri əsasında həyata keçirilmişdir. Təhlilə 2025-ci il ərzində sistemə daxil edilmiş bütün auditor xidməti müqavilələri cəlb olunmuşdur.

Toplanmış məlumatlara aşağıdakılar daxildir:

- Auditor təşkilatlarının və sərbəst auditorların adı;
- Müqavilənin növü və dəyəri;
- Müqavilənin icra statusu;
- Auditor rəyləri və təqdim edilmiş izahatlar.

### 3.2. Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədlərinə əməl olunmasının monitorinqi

Hər bir müqavilənin dəyəri Auditorlar Palatası Şurasının 03 oktyabr 2022-ci il tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri” ilə müqayisə edilmişdir. Minimum hədlərə uyğun və ya onlardan yüksək məbləğlə bağlanmış müqavilələr sağlam bazar davranışı kimi qiymətləndirilmişdir.

### 3.3. Təhlil yanaşmaları

- Statistik təhlil – müqavilələrin sayı, növü və statusu üzrə;
- Müqayisəli təhlil – minimum hədlərə uyğunluq baxımından;
- Keyfiyyət analizi – auditorların izahatları və fəaliyyət nümunələri əsasında potensial haqsız rəqabət risklərinin qiymətləndirilməsi.

## V. AUDİTOR XİDMƏTLƏRİ BAZARININ ÜMUMİ GÖSTƏRİCİLƏRİ

Təhlil dövründə auditor fəaliyyətinin ümumi mənzərəsi kifayət qədər aktiv olmuşdur. Belə ki, 202 auditor təşkilatı və 70 sərbəst auditor tərəfindən sistemə ümumilikdə 6562 auditor xidməti müqaviləsi daxil edilmişdir. Müqavilələrin icra statusu üzrə bölgü aşağıdakı kimidir:

- **Rəy verilib – 5261 müqavilə (80,2%)**

Bu müqavilələr üzrə audit prosesi tam başa çatdırılmış və yekun auditor rəyi təqdim edilmişdir. Göstəricinin yüksək olması auditor xidmətlərinin əsas hissəsinin uğurla nəticələndiyini və sistemdə nəticəyönümlü icranın üstünlük təşkil etdiyini göstərir.

- **İcra olunub – 555 müqavilə (8,5%)**

Bu kateqoriyaya daxil olan müqavilələr üzrə audit işləri icra edilmişdir. Bu status rəy tələb olunmayan auditor xidmətlərini əhatə etdiyini göstərir.

- **İcradadır – 712 müqavilə (10,8%)**

Hazırda icra mərhələsində olan bu müqavilələr audit prosesinin davam etdiyini və növbəti dövrlərdə həm “icra olunub”, həm də “rəy verilib” statuslu müqavilələrin sayının artacağını deməyə əsas verir.

- **Ləğv olunub – 34 müqavilə (0,5%)**

Ləğv edilən müqavilələrin payının çox aşağı olması müqavilə bağlanması mərhələsində düzgün planlaşdırmanın aparıldığını və auditor xidmətlərinin davamlılığının təmin edildiyini göstərir.

Aparılmış təhlil göstərir ki, auditor xidməti müqavilələrinin icrası ümumilikdə yüksək səviyyədə həyata keçirilmişdir. Müqavilələrin 80,2%-i üzrə auditor rəyinin verilməsi auditor fəaliyyətinin əsas hissəsinin tam və nəticəyönümlü şəkildə başa çatdırıldığını nümayiş etdirir. Eyni zamanda, 8,5% müqavilə üzrə audit işlərinin rəy tələb olunmadan icra edilməsi auditor xidmətlərinin müxtəlif növlər üzrə həyata keçirildiyini təsdiqləyir.

Bununla yanaşı, müqavilələrin 10,8%-nin icra mərhələsində olması audit prosesinin davamlı xarakter daşıdığını və növbəti hesabat dövrlərində tamamlanan və rəy verilən müqavilələrin sayının artacağını deməyə əsas verir. Ləğv olunmuş müqavilələrin cəmi 0,5% təşkil etməsi isə auditor müqavilələrinin planlaşdırılması və icrası prosesində risklərin minimum səviyyədə olduğunu, eləcə də tərəflər arasında əməkdaşlığın əsasən stabil qurulduğunu göstərir.

Müqavilələrin yüksək icra faizi müsbət göstərici olmaqla yanaşı, bu müqavilələrin hansı qiymət səviyyəsində və hansı rəqabət şəraitində bağlanması məsələsi auditor xidməti bazarında sağlam rəqabətin qiymətləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu səbəbdən müqavilələrin yalnız say göstəriciləri deyil, eyni zamanda onların minimum hədlərə uyğunluğu da əsas təhlil obyektlərindən biri olmuşdur.

***Müqavilələrin xidmət növlərinə görə təsnifatı***

Müqavilələr auditor xidmətlərinin növünə görə aşağıdakı kimi paylanmışdır:

| ***Xidmət növü*** | ***Qısaltma*** | ***Müqavilə sayı*** | ***Faiz (%)*** |
|---|---|---|---|
| Maliyyə-təsərrüfat əməliyyatlarının qanunvericiliyə uyğunluğunun yoxlanılması məqsədilə təsərrüfat subyektlərinin maliyyə (mühasibat) hesabatlarının auditi | MHA | 5296 | 80,7% |
| Nizamnamə kapitalının formalaşdırılmasının auditi | NKA | 180 | 2,7% |
| Maliyyə-təsərrüfat əməliyyatlarının vergi qanunvericiliyinə uyğunluğunun yoxlanılması məqsədilə təsərrüfat subyektlərinin vergi hesabatlarının auditi | VHA | 39 | 0,6% |
| Əmlakın qiymətləndirilməsinin düzgünlüyünün təsdiqi | ƏQA | 88 | 1,3% |
| Müəssisə və təşkilatlarda mühasibat xidmətlərinin göstərilməsi | MUX | 40 | 0,7% |
| Mühasibat və vergi uçotu, vergiqoyma üzrə ayrı-ayrı məsələlər üçün məsləhət xidmətinin göstərilməsi | MX | 272 | 4,1% |
| İqtisadi əsaslandırmaların, biznes planlarının və digər layihələrin işlənib hazırlanması | İƏX | 27 | 0,4% |
| Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan audit | SDOSA | 40 | 0,7% |
| Digər əlaqəli xidmətlər | DX | 580 | 8,8% |

Aparılan təhlil göstərir ki, audit və əlaqəli xidmətlər üzrə bağlanmış müqavilələrin strukturunda maliyyə (mühasibat) hesabatlarının auditi (MHA) üstünlük təşkil edir. Bu xidmət növü üzrə 5296 müqavilə bağlanmış və bu da ümumi müqavilələrin 80,7%-ni təşkil etmişdir. Göstəricinin yüksək olması təsərrüfat subyektlərində maliyyə-təsərrüfat əməliyyatlarının qanunvericiliyə uyğunluğunun yoxlanılmasına və maliyyə hesabatlarının etibarlılığının təmin edilməsinə xüsusi önəm verildiyini göstərir.

Digər xidmət növləri üzrə müqavilələrin payı nisbətən aşağı olmuşdur. Belə ki, nizamnamə kapitalının formalaşdırılmasının auditi (NKA) üzrə 180 müqavilə (2,7%), vergi

hesabatlarının auditi (VHA) üzrə isə 39 müqavilə (0,6%) qeydə alınmışdır. Bu göstəricilər həmin xidmət növlərinin daha spesifik və məhdud hallarda tələb olunduğunu əks etdirir.

Eyni zamanda, əmlakın qiymətləndirilməsinin düzgünlüyünün təsdiqi (ƏQA) üzrə 88 müqavilə (1,3%), mühasibat xidmətlərinin göstərilməsi (MUX) üzrə 40 müqavilə (0,7%) bağlanmışdır ki, bu da auditlə yanaşı, mühasibat sahəsində də dəstək xidmətlərinə müəyyən tələbatın mövcud olduğunu göstərir.

Mühasibat və vergi uçotu, eləcə də vergiqoyma üzrə məsləhət xidmətləri (MX) 272 müqavilə (4,1%) ilə nisbətən daha geniş yayılmış xidmətlər sırasında yer almışdır. Bundan əlavə, səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan auditlər (SDOSA) üzrə 40 müqavilə (0,7%) qeydə alınmışdır ki, bu da dövlət nəzarəti çərçivəsində auditor xidmətlərinin həyata keçirildiyini göstərir.

Digər əlaqəli xidmətlər (DX) üzrə 580 müqavilə (8,8%) bağlanması isə auditor xidməti bazarında müxtəlif əlavə xidmətlərə olan tələbatın mövcudluğunu əks etdirir ***(Diaqram 1).***

***Bağlanmış müqavilələrin auditor xidmətləri üzrə növləri***




***Diaqram 1***

Ümumilikdə, əldə olunan nəticələr auditor fəaliyyətində maliyyə hesabatlarının auditinin əsas prioritet olduğunu, bununla yanaşı, əlaqəli və məsləhət xidmətlərinin də audit bazarında mühüm yer tutduğunu göstərir.

## VI. MƏCBURİ VƏ KÖNÜLLÜ AUDİT ÜZRƏ MÜQAYİSƏLİ TƏHLİL

"Auditorun şəxsi kabineti" sisteminə daxil edilmiş 5296 MHA (Maliyyə-təsərrüfat əməliyyatlarının qanunvericiliyə uyğunluğunun yoxlanılması məqsədilə təsərrüfat

subyektlərinin maliyyə (mühasibat) hesabatlarının auditi) üzrə müqavilələrdən 3157-si məcburi auditin subyekti, 2139 müqavilə isə könüllü auditin subyekti olmuşdur. Bu da uyğun olaraq 59,6% və 40,4% təşkil etmişdir. Bu göstəricilər auditor xidmətlərinə marağın yalnız məcburi tələblərlə məhdudlaşmadığını, könüllü auditlərin də əhəmiyyətli paya malik olduğunu və təsərrüfat subyektlərinin auditi maliyyə şəffaflığı və effektiv idarəetmənin təmin olunması üçün vacib alət kimi dəyərləndirdiyini göstərir ***(Diaqram 2).***

***Bağlanmış və icra olunmuş müqavilələrin məcburi və könüllü audit subyektləri üzrə müqayisəsi***




***Diaqram 2***

## VII. AŞKAR EDİLMİŞ MÜSBƏT PRAKTİKALAR

2025-ci il ərzində 55 auditor təşkilatı və 11 sərbəst auditor tərəfindən bağlanılmış ümumilikdə 78 müqavilə üzrə auditor xidmətlərinin dəyərlərinin Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədlərindən yüksək olması audit bazarında qiymətlərin süni şəkildə aşağı salınmasının qarşısının alınması, dempinq hallarından yayınma, auditorların peşəkar məsuliyyətinin və xidmət keyfiyyətinin qorunması, eyni zamanda sağlam, şəffaf və davamlı rəqabət mühitinin formalaşdırılması baxımından müsbət və nümunəvi praktika kimi qiymətləndirilir və bu yanaşma haqsız rəqabətlə mübarizədə mühüm rol oynayan, bazar iştirakçıları üçün təşviqedici və istiqamətverici mexanizm hesab olunur.

Bununla yanaşı, qeyd olunan müsbət praktikalar auditor xidməti bazarında haqsız rəqabət hallarının tam aradan qalxmadığını, sağlam bazar davranışlarının hələ də sistemli xarakter almadığını göstərən neqativ hallarla paralel müşahidə olunmuşdur.

## VIII. AŞKAR EDİLMİŞ NEQATİV HALLAR

2025-ci il ərzində də ötən illərdə olduğu kimi auditor xidməti bazarında qiymətlərin yolverilməz dərəcədə aşağı salınması, dempinq xarakterli təkliflərin verilməsi və bunun nəticəsində digər auditor subyektlərinə qarşı haqsız rəqabət mühitinin formalaşması ilə bağlı məsələlər Auditorlar Palatasının xüsusi nəzarətində olmuşdur. İl ərzində aparılan monitorinqlər çərçivəsində bir sıra təşkilatların bazar qiymətlərinə uyğun olmayan, obyektiv əsasları göstərilməyən xidmət haqları ilə çıxış etdiyini müəyyən etmişdir. Bu cür təcrübə təkcə peşə prinsiplərinə zidd deyil, həm də göstərilən xidmətin keyfiyyətinin aşağı düşməsi, auditor rəyinin etibarlılığına xələl gətirilməsi və ümumi peşə nüfuzunun zəifləməsi kimi ciddi risklər yaradır.

Aşkar olunmuş hallar üzrə Palata tərəfindən hər bir fakt ayrı-ayrılıqda araşdırılmış, nəticə etibarilə 23 auditor təşkilatına və 7 sərbəst auditora xəbərdarlıq edilmiş, 1 sərbəst auditora töhmət elan olunmuş və 1 auditor təşkilatı altı ay müddətinə peşə fəaliyyətindən kənarlaşdırılmışdır.

## IX. NƏTİCƏ

Aparılmış təhlil göstərir ki, 2025-ci il ərzində auditor xidməti bazarında haqsız rəqabət halları, xüsusilə dempinq xarakterli qiymət siyasəti audit bazarının əsas problemlərindən biri olaraq qalmaqdadır. Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədlərinə əməl olunmaması, obyektiv əsaslandırılmamış aşağı qiymətlərlə bazara daxil olma cəhdləri və qeyri-etik rəqabət davranışları ayrı-ayrı auditor subyektləri arasında bərabər rəqabət şəraitini pozmaqla yanaşı, auditor xidmətlərinin keyfiyyətinə, auditor rəyinin etibarlılığına və ümumilikdə müstəqil audit institutuna ictimai etimada mənfi təsir göstərir.

Eyni zamanda, 2025-ci il ərzində 55 auditor təşkilatı və 11 sərbəst auditor tərəfindən bağlanılmış 78 müqavilə üzrə xidmət dəyərlərinin müəyyən edilmiş minimum hədlərdən yüksək olması auditor xidməti bazarında sağlam qiymət formalaşmasının mümkünlüyünü nümayiş etdirən müsbət praktika kimi qiymətləndirilir. Bu hallar haqsız rəqabətdən yayınma, peşəkar məsuliyyətin qorunması və etik bazar davranışının təşviqi baxımından nümunəvi yanaşma olmaqla, auditor xidməti bazarında sağlam rəqabət mühitinin formalaşdırılmasına töhfə vermişdir.

Bununla belə, Palata tərəfindən aparılmış monitorinqlər və intizam icraatları göstərir ki, haqsız rəqabət hallarının qarşısının alınması istiqamətində görülmüş tədbirlərə baxmayaraq, bazarda dempinq meylləri tam aradan qaldırılmamışdır. İl ərzində 23 auditor təşkilatına və 7 sərbəst auditora xəbərdarlıq edilməsi, 1 sərbəst auditora töhmət elan olunması və 1 auditor təşkilatının fəaliyyətinin müvəqqəti dayandırılması bu sahədə nəzarət mexanizmlərinin

gücləndirilməsinə və daha sistemli yanaşmanın tətbiqinə ehtiyac olduğunu bir daha təsdiqləyir.

Bu baxımdan, haqsız rəqabətlə mübarizə yalnız intizam tədbirlərinin tətbiqi ilə məhdudlaşmamalı, auditor xidməti bazarında etik davranış mədəniyyətinin formalaşdırılması, peşə həmrəyliyinin gücləndirilməsi və Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədlərinə riayət olunmasının bazar subyektləri tərəfindən daxili məsuliyyət kimi qəbul edilməsi istiqamətində davamlı tədbirlərlə müşayiət olunmalıdır. Yalnız bu halda auditor xidməti bazarında uzunmüddətli, ədalətli və dayanıqlı rəqabət mühiti təmin edilə bilər.